# İsa Həbibbəyli - 70

## "Mətn mədəniyyəti" və ya məhsuldar ideyaların monolitliyi



*İsmayıl KAZIMOV,*
*filologiya elmləri doktoru,*
*professor*

Mətn - dil vahidlərinin semantikası baxımından çoxölçülü fikir məkanıdır. Mətn mənanın və müəyyən struktur qanunauğunluqlarının vəhdətindən yaranır. Bu məkan semantik bitkiliyi müəyyən iyerarxik bütövlüyü nümayiş etdirir, resipiyent tərəfindən informativ yükü daşıma və ötürmə prosesində mühüm amil kimi çıxış edir. Mətn «elmi məkan»dır. Həmin məkanda elmi mənanın həqiqiliyi ilə yanaşı, paradoksallıq da özünü göstərə bilir.

İsa Həbibbəylinin mətnləri həm dil, həm də nitq faktıdır. Bu mətnlər, öncə kommunikativ və informativ, bir nitq vahidi olaraq sadəcə ona xas olan, özəl işarələr vasitəsilə formalaşır. Bunlar mümkün olduğu qədər, elmi mətnin açıqlığı, aydınlığı və dərk edilməsini və xüsusi dil-sənətkarlıq mövqeyini ehtiva edir.

Monolitlik mətnə, ələlxüsus da elmi dilə xas olan cəhətlərdəndir. «Monolit» - terminin mənası bütövlük, ayrılmaz, möhkəm anlamını verir. Monolit mətnlərin üslubu qəbuledilləndir.

Yaradıcılıq işinin mexanizmi, bu mətnin prinsipial assimetrik fikiryaradıcı mexanizmdir. Bu, mətnin dərin strukturunda yaranan yeni fikirlərdir. "Mətn nəinki yeni fikirlərin generatorudur, eyni zamanda mədəniyyətin kondensatorudur" (Ç.M.Lotman).

Elmi yaradıcılıq sferası yeni elmi yanaşmadan ibarətdir. Onun elmi əsərlərinin dili bu baxımdan dil bir aynadır. Bu aynaya baxanda elmin təmiz, parlaq, şəffaf yönləri görünür. Bir zamanlar Akademik İsa Həbibbəylinin elmi dili (bu üslub ləyaqətli, səlis, novator və aydındır!), həmin ifadə tərzini əks etdirən mətnlər diqqətimizi xüsusi olaraq cəlb etmişdi. Diqqəti daha çox çəkən isə bu mətnlərdəki sintaktik konstruksiyaların daim bir-birini təhdid etməsi, bir-birini izləməsi olmuşdur. Yəqinliklə demək olar ki, bu, müstəqil, fərdi üslubdur. Buna bənzər yazılar, demək olar ki, yoxdur.

AMEA-nın həqiqi üzvü İ.Həbibbəyli əsas etibarilə ədəbiyyatşünaslığa (ədəbiyyat nəzəriyyəsi, Azərbaycan ədəbiyyatı tarixi və s.) aid mətnlər qurur. Adama elə gəlir ki, bu mətnlərin struktur-semantik və funksional-praqmatik əlamətlərini ayrıca tədqiq etmək də olardı. Həmin mətnləri qurmağın özü çətin bir prosesin nəticəsidir. Şübhəsiz, belə araşdırma xüsusi maraq doğurmaya bilməz.

Elmi dildə insan amili mühüm önəm daşıyır. İnsan elmin dərinliyə baş vurmağa çalışır. Söz, fikir adamı sözü yeni semantik yuvalarda işlətməyə səy göstərir. Bu cəhətləri elmi fəaliyyətində həmişə nəzarətdə saxlayan, fundamental əsərlər yaradıcısı İ.Həbibbəylinin elmi dili və üslubu monoloji xarakter kəsb edir: Ciddi, qəti, tələbkar, dürüst, dəqiq seçilmiş, sərt qaydada, nizamlı dil vasitələrindən istifadə; ağır, cəlbedici, normaya salınmış nitq söyləməyə meyil; öncədən ətraflı düşünülmüş, götür-qoy edilmiş, fikrini dərindən cəmləşdirilmiş. Qaldırdığı ədəbi məsələlər barəsində təzə söz deməyə meyil göstərir.Yeni ifadə vasitələrindən istifadə edir. Bunlardan elmi nəticələr çıxarır. Dil vasitələri seçilərkən məntiqi-semantik ardıcıllıq gözlənilir.

Görkəmli ədəbiyyatşünas alim İsa Həbibbəylinin qurduğu elmi mətnlər bizim nəzərimizi bundan başqa bir çox cəhətdən də özünə cəlb etdi: 1) faktların dəqiqliyi, bütövlüyü, aydınlığı, sübutların, dəlillərin aydınlaşdırılması, mühakiməsinin itiliyi baxımından; 2) ədəbi hadisələr, proseslər arasında səbəb-nəticə əlaqəsinin göstəricisi baxımından; 3) ədəbi tarixi inkişafın qanunauyğunluqların üzə çıxarılması baxımıdan və s.

O, elmi üslubun normalarına ciddi əməl edən alimlərimizdəndir. Elmi mətn müəllifin nitqyaradıcı fəaliyyətinin nəticəsi olaraq meydana çıxır. Onun elmi nitqi mübaliğəsiz dünyanın indivudal mənzərəsini əks etdirir. Daha məhdud dairədə ədəbiyyat nəzəriyyəsinin, ədəbiyyat tarixinin, Azərbaycan ədəbiyyatının xəritəsini inikas etdirir. Həmin mətnlərdə olan interpretasiyalar (izah və şərhlər) müəllifin dünyaya baxışıdır.

Akademik İsa Həbibbəylinin qurduğu mətnlər öz xüsusi tonallığına, emosional boyalarına, rənglərinə görə seçilir. Emosional tonal mətnlər universal kateqoriya təşkil edir. Bu mətnlər üçün monoloit və semantik bütövlük hakimdir. İsa müəllimin qurduğu elmi mətnlər aşağıdakı xüsusiyyətlərinə görə də xarakterizə oluna bilər: yüksək aktivliyə malik informativliklə, semantik bütövlük yaradan vasitələrlə, izomorfizm mahiyyətindən meydana gələn ifadələrin bolluğu, sinonimik və perifrastik transformasiyaların çevikliyi ilə səciyyələnir.

İ.Həbibbəylinin elmi dilinin leksik tərkibini milli sözlərimizlə bərabər alınma söz və terminlər də təşkil edir. Müasir elmi üslubun leksik quruluşunun xarakterik cəhəti - terminoloji alınmaların müntəzəm axınıdır. İsa müəllim ümumişlək və terminoloji leksikadan ən çox elmi anlayışlar arasında rabitə yaratmaq, onlar arasındakı münasibətləri ifadə etmək, anlayışı şərh etmək, sınaq materialının təsvirini vermək, ədəbiyyatı, ədəbiyyat adamını dəyərləndirmək üçün istifadə edir. İstifadə etdiyi söz və terminlər dolğunluq yaradır, elmi anlayışları təmin edir. Bununla verilən elmi bilik kütləviləşir.

İ.Həbibbəyli elmi dilinin frazeoloji tərkibi. Bu tərkib elmi dil üçün bir o qədər də məqbul sayılmasa da, hər halda deyimlər fikir-məna ətrafında cəmləşə bilir və yüksək məntiqi-informativ dolğunluq yaradır.

Xüsusi avtoriallaşma üsulu - «mən» qeyri-müəyyən şəkli konstruksiyalardan istifadə (Hesab edirəm ki bütün bunlar Səməd Vurğunun simasında poetik düşüncə ilə elmi idrakın yaratdığı dərin təəssüratların nəticəsi idi (İsa Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman. Əsərləri 10 cilddə, II cild, "Elm və təhsil", 2017, səh.555). Sintaktik səviyyədə bağlayıcılı mürəkkəb cümlələrdən istifadə: Səməd Vurğun çəkinmədən tələb edirdi ki, «SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı öz işini elə qurmalıdır ki, bizdə tarix elmləri özünəlayiq yer tutsun» (səh.541).

Başqa bir cəhət, avtonom «altdil»in mövcudluğu. Bu keyfiyyət İ.Həbibbəylinin elmi dilinin üslubunu səciyyələndirən başqa bir əlamətdir.



Onun elmi dilinin müxtəlif mövzuları işlənmə məqamında hiss olunur ki, qarşılıqlı təsirlər, xüsusiləşmələr (məs.: gərgin yaradıcılıq - ictimai işlər) burada özünəməxsus sistem yaradır: Gərgin yaradıcılıq səylərinə baxmayaraq, Səməd Vurğunun 1945-1956-cı illərdə ictimai işlərlə və elmi-təşkilati fəaliyyətlə də ardıcıl şəkildə məşğul olmuşdur - səh.55). Ona görə ki, elmi sahə, elmi istiqamət sərhədlənmir, əksinə, həmişə inkişaf edərək öz hüdudlarını genişləndirir.

Alimin məhsuldar ideyalarından biri Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləridir. Həqiqətən də elmin, o cümlədən, İ.Həbibbəylinini ədəbiyyatda yeni tarixi dövrləşməni müəyyənləşdirməsi göstərir ki, hələ bu yöndə görüləsi işlər çoxdur, yeni istiqamətlər, yeni sahələr, yeni düşüncələr meydana çıxmalıdır.

Bir akademik düşüncə sahibi ədəbiyyatşünaslıq elminin differensiasiyası və inteqrasiya proseslərinin bir-birindən ayrılmadığı, qırılmadığı qənaətinə gəlir. O, bu prosesə mühüm önəm verir. Çünki filoloji elmlərin sahə baxımından diferensiasiyası inteqrasiya üçün zəmin hazırlayır.

Hər hansı bir yeni elmin, yeni təsnifatın (yenidən dövrləşmənin) yaxud elmi araşdırmalardakı yeni istiqamətlərin meydana çıxması bu sahədəki yarımçıqları, yəni boşluğu doldura bilir, eləcə də bu sahənin öyrənilməsini asanlaşdırır. Bu baxımdan inteqrasiya istər-istəməz diferensasiyayaya aparıb çıxarır.

İ.Həbibbəyli bu və ya digər məhsuldar ideyaların, həmçinin yeni ortaq (müştərək) problemlərin və elmi sahələrin meydana çıxmasına mütləq sayır.

Həqiqətən də, elmin, o cümlədən, İ.Həbibbəylinin ədəbiyyatda yeni tarixi dövrləşməni müəyyənləşdirməsi göstərir ki, hələ bu yöndə görüləsi işlər çoxdur, yeni istiqamətlər, yeni sahələr, İsa müəllimin timsalında yeni düşüncələr meydana çıxmalıdır.

Məqalələrində elmi informasiyaları yığcam bir dildə verir, təhlil etdiyi obyekt barədə aydın təsəvvür yaradır, bir sözlə, elmi arqumentlər sistemini bütöv biçimdə təqdim edir. Məsələn: «Müasir ədəbi prosesin çağırışlarından və qayğılarından, gərginliklərindən bəhs edəndə də nə qədər çətin olsa da, Kamal Abdulla mühitin səthində qalmır, fövqündə dayanmağa çalışaraq mahiyyəti açmaqla bərabər, həm də çıxış yolu göstərmək funksiyalarını həyata keçirməyə ciddi surətdə səy göstərir» (səh.893). Ədəbiyyatın, ədəbi prosesin müxtəlif proseslərinə, şair və yazıçıların əsərlərinə dair yazıları aydınlaşdırıcı, sübutedici, məntiqi, yığcam, obyektlik, konkretlik, fikrin dəqiqliyi kimi keyfiyyətlərə malikdir.

İ.Həbibbəylinin elmi nitqi standartlılıq (birtiplilik) xüsusiyyəti daşıyır. Bu o deməkdir ki, onun elmi mətni açıq sistem kimidir. Elmi üslub, şübhəsiz, həmin sistemin alt qatını təşkil edir və elmi kommunikasiyanı təmin edir. «Yüksək mədəni səviyyəyə, nümunəvi ziyalılığa malik olan Abbas Səhhət öz şəxsiyyətinin bütün daxili zənginliyini əlçatmaz, hissedilməz duyğu və həyəcanlarına qədər şeirlərinə hopdurmuşdur. Buna görə də nun lirikası ağlın fəlsəfəsi hikmətlərindən çox, qəlbin incə musiqisi, melodiyası kimi səslənir» (səh.390).

Elmi mətnlərinin interpretasiyası göstərir ki, İsa Həbibbəylinin elmi nitqi spesifik standartlarla - sabit nitq formaları ilə, məhsuldar və qarşılıqlı əlaqə, ünsiyyət yaradan vasitələrinin bolluğu ilə təmin olunub. Onun elmi nitqi bu cəhətlərə görə də səciyyələnə bilər.

Belə formalar mürəkkəb termin və anlayışlardan ibarətdir (nəzəri baza, emprik əsas, məsələnin öyrənilməsi tarixi, hər iki mərhələdə, yeni tarixi dövr, akademik hesabat, ictimai fikrin inkişafı və s.).

İşlətdiyi standart konstruksiyalar məqamında variantlaşır. Variantlaşan standartlar ələlxüsus da kompoziya (quruluş, tərtibat) siqnalları üçün istitfadə olunur.

Bundan başqa, İ.Həbibbəylinin elmi nitqində standartlar bir sıra mühüm funksiyaları da yerinə yetirir. Birinci növbədə, kompozisiya siqnalları - yeni mətnin struktur-məzmun hissəsi kimi daxil edilir. Standartlaşmanın xarakteri - növbəti informasiyaların xarakterinin keçməsinə əvvəlcədən bilmək imkanı verir. İkincisi, standartlar elmi hazırdlığa sərf edilmiş zamana qənaət edir. Üçüncüsü, İ.Həbibbəylinin standartlaşmış elmi nitqi xeyli informasiya ilə təmin olunaraq məlumatları mümkün olan tərzdə, əlverişli şəraitdə asanlaşdırır, sadə, anlaşıqlı bir duruma gətirib çıxarır. Ona görə də standartlaşdırmadan istifadə İ.Həbibbəylinin elmi nitqində kontakt, əlaqəqurucu mənanın formalaşmasına da imkan verir.

*(Davamı var)*